Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası



# FƏALİYYƏT HESABATI 2024

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası

# FƏALİYYƏT HESABATI 2024

BAKI-2024

# Fəaliyyət istiqamətləri və məqsədlər

AKTA 2022-ci ildə yaradılmış qeyri-hökumət təşkilatıdır.

AKTA özündə İT və kibertəhlükəsizlik üzrə ixtisaslaşmış şirkət, təşkilat və ekspertləri birləşdirir.

AKTA ölkəmizdə kibertəhlükəsizlik ekosisteminin gücləndirilməsi və potensialının artırılmasına, kibertəhlükəsizliyin təmin olunması sahəsində həyata keçirilən tədbirlərin əlaqələndirilməsinə və sahənin inkişafına dəstək verir.

AKTA tərəfindən sahəvi layihələr və maarifləndirici tədbirlər, əməkdaşlıq görüşləri, forum, konfrans və xarici səfərlər, yerli həllər və innovasiyaların təşviqi həyata keçirilir.

Qanunvericilik bazasının təkmilləşdirilməsi

Maarifləndirmə və məlumatlılıq səviyyəsinin yüksəldilməsi

Elmi-texniki və tədqiqat potensialının gücləndirilməsi

Kadr potensialının gücləndirilməsi

İnnovasiya və startap ekosisteminə dəstəyin genişləndirilməsi

Milli həllərin hazırlanması və tətbiqi

İnsident və böhran hallarının idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi

Əməkdaşlığın (ölkə daxili və beynəlxalq) genişləndirilməsi

# STRUKTUR, ÜZVLƏR VƏ KOMANDA

**146** ÜMUMİ YIĞINCAQ

**60** HÜQUQİ ŞƏXS

**86** EKSPERT

**10** İDARƏ HEYƏTİ

**11** İCRA APARATI

**Hesabat dövründə qəbul edilmiş yeni üzvlər:**

- 12 hüquqi şəxs
- 22 ekspert (fiziki şəxs)

# 2024 - cü il rəqəmlərdə

**68**
Tədbirlərin (forum, konfrans, seminar, vebinar, yarış, təlim və s.) sayı

**7000+**
Bu tədbirlərə cəlb olunmuş iştirakçıların sayı

**70+**
Əməkdaşlıq üzrə görüşlərin sayı

**9**
Xarici səfərlərin sayı

**12**
«Tədqiqat və inkişaf» istiqaməti üzrə tədbirlərin / layihələrin sayı

## Fəaliyyətə dair məlumatlandırma və maarifləndirmə

**126**
MƏTBUATDA XƏBƏRLƏR

**80**
SAYTDA XƏBƏRLƏR (akta.az)

**250+**
SOSİAL MEDİA PAYLAŞIM

**6**
TV VƏ RADİO PROQRAMLAR

**227**
SƏNƏD DÖVRİYYƏSİ

# KİBERTƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

**1** FORUM

**12** TƏDBİR

**70+** GÖRÜŞ

**3000+** İŞTİRAKÇI

**9** SƏFƏR

KİBER KAFE VƏ EKSPERT GÖRÜŞLƏRİ

RƏHBƏR HEYƏTLƏ GÖRÜŞLƏR

SAHƏVİ GÖRÜŞLƏR

SƏRGİLƏRDƏ İŞTİRAK



ŞƏBƏKƏLƏŞMƏ TƏDBİRLƏRİ

BEYNƏLXALQ SƏFƏRLƏR

MİLLİ KİBER TƏHLÜKƏSİZLİK FORUMU

B2B VƏ B2G FORUMLAR

# KİBERTƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

**16.01.2024**

## "Kibertəhlükəsizlik təhsili və əməkdaşlıq" mövzusunda tədbir baş tutub

16 yanvar 2024-cü il tarixində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşkilatçılığı ilə "Kibertəhlükəsizlik təhsili və əməkdaşlıq" mövzusunda tədbir baş tutub.

Tədbirin əsas məqsədini ali təhsil müəssisələrində yaradılmış kiber klubların fəaliyyəti, o cümlədən informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində həyata keçirilən təhsilə, habelə universitet-sənaye əməkdaşlığının genişləndirilməsinə dair ali təhsil müəssisələrinin, AKTA üzvü olan şirkət və təşkilatların, eləcə də müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə dəyirmi masa formatında müzakirələrin həyata keçirilməsi təşkil edib.

AKTA İdarə Heyətinin sədri tərəfindən "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası"nda (bundan sonra – Strategiya) təsbit olunmuş aidiyyəti hədəf və məqsədlər, eləcə də müvafiq sahə üzrə təhsilə dair müəyyən olunmuş tədbirlər iştirakçıların diqqətə çatdırılıb. Təhsil müəssisələri ilə dövlət və özəl sektor arasında informasiya təhlükəsizliyi üzrə kadr hazırlığına dair əməkdaşlığın genişləndirilməsinin zəruriliyi qeyd olunub.

Həmçinin, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin nümayəndəsi tərəfindən ali təhsil müəssisələrinin prioritetlərinin müəyyənləşdirilməsi zamanı Strategiyada müəyyən olunmuş hədəf, məqsəd və tədbirlərin nəzərə alınmasının zəruriliyi qeyd olunub. Tədbirdə təlimçi qismində bu sahə üzrə peşəkar prokurorluq işçiləri ilə yanaşı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının rəhbəri və Vəkillər Kollegiyasının nümayəndəsi iştirak etməklə, qurumların əməkdaşları arasında təcrübə mübadiləsi aparılıb.










**04.03.2024**

## Bakıda “Birləşmiş Krallıq Kiber Təhlükəsizlik Sərgisi” keçirilib

Cari ilin 4 mart tarixində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfirliyinin təşkilatçılığı və Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) tərəfdaşlığı ilə Bakı şəhərində “Birləşmiş Krallıq Kiber Təhlükəsizlik Sərgisi” (“UK Cyber Security Expo”) həyata keçirilib.

Açılış tədbirində çıxış edən AKTA sədri Elvin Balacanov tədbirin təşkilatçılığına və əməkdaşlıqla bağlı təqdim edilən təkliflərə görə Birləşmiş Krallığın ölkəmizdəki səfirliyinə, habelə öz məhsul, həll və təcrübələrini bölüşmək üçün ölkəmizə təşrif buyurmuş Birləşmiş Krallığın sahə üzrə ixtisaslaşmış “Titan Labs”, “TAG International”, “BAE Systems” və “Monarch” şirkətlərinə təşəkkürünü bildirib.

Daha sonra, adıçəkilən şirkətlərin nümayəndələri tərəfindən müvafiq təqdimatlar həyata keçirilib, təqdim olunan məhsul, həll və xidmətlərə dair məlumatlar tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Nahar fasiləsindən sonra isə adıçəkilən şirkətlərlə tədbirdə iştirak edən qurum və şirkətlərin nümayəndələri, habelə AKTA üzvləri arasında B2B formatında görüşlər baş tutub.











# KİBERTƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

**06.03.2024**

## DGKA ilə AKTA arasında Anlaşma Memorandumu imzalanıb

Cari ilin 6 mart tarixində Dövlət Gömrük Komitəsinin Akademiyası (DGKA) ilə Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA) arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov, Dövlət Gömrük Komitəsinin Kibertəhlükəsizlik şöbəsinin rəisi Turqut Vəliyev, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Balacanov, AKTA İdarə Heyətinin sədr müavini Rauf Cabarov, AKTA İdarə Heyətinin üzvləri - "Simbrella" şirkətinin baş direktoru və təsisçisi Seymur Məmmədov və "A2Z Technologies" şirkətinin marketinq direktoru Malik Rəşidov, habelə Assosiasiyanın və Akademiyanın əməkdaşları iştirak ediblər.



**12.03.2024**

## AKTA İdarə Heyətinin növbəti iclası baş tutub




12 mart tarixində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) İdarə Heyətinin sayca 10-cu olan növbəti iclası baş tutub. İclas AKTA İdarə Heyətinin üzvü olan Simbrella şirkətinin ofisində keçirilib.

İclasda AKTA İdarə Heyətinin sədri Elvin Balacanov tərəfindən cari ilin birinci rübünün hesabatı təqdim edilib. Qeyd olunan dövr ərzində maarifləndirmə, təhsil, əməkdaşlıq, tədqiqat və inkişaf istiqamətləri üzrə AKTA tərəfindən görülmüş işlər barədə məlumat verilib və müzakirələr aparılıb. Görüşdə AKTA tərəfindən son dövrlərdə aparılan və üzvlərə yönəlmiş bir sıra işlər barədə məlumat verilib. AKTA İdarə Heyətinin sədr müavini Rauf Cabarov kibertəhlükəsizlik məhsul və xidmətlərinin elektron kataloqu barədə iclas iştiakçılarına məlumat verib, yaradılmış elektron kabinetin imkanlarını təqdim edib.

Görüşün sonunda AKTA İdarə Heyətinin üzvləri tərəfindən gələcək fəaliyyət barədə müzakirələr aparılıb və təkliflər səsləndirilib.

**15.03.2024**

## AKTA üzvləri ilə görüş keçirilib

15 mart tarixində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının üzv şirkətlərinin iştirakı ilə geniş tərkibli onlayn görüş baş tutub. Görüşdə AKTA-nın təqdim etdiyi bir sıra yeniliklər barədə məlumat verilib.



# KİBERTƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

**05.04.2024**

## AKTA Ekspertləri ilə görüş keçirilib

5 aprel tarixində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) ekspertlərinin iştirakı ilə onlayn görüş baş tutub. Görüşdə AKTA tərəfindən təqdim edilən bir sıra yeniliklər barədə məlumat verilib.

Görüşü AKTA İdarə Heyətinin sədri Elvin Balacanov giriş sözü ilə açıb və son yeniliklər, eləcə də AKTA ekspertliyinə yeni qəbul edilmiş ekspertlər barəsində qısa məlumat verib. Daha sonra AKTA İdarə Heyətinin sədr müavini Rauf Cabarov tərəfindən AKTA ekspertləri üçün yaradılmış elektron kabinet barədə təqdimat edilib.



**03.05.2024**

## Qərbi Kaspi Universiteti və AKTA arasında Anlaşma Memorandumu imzalanıb

Cari ilin 3 may tarixində Qərbi Kaspi Universiteti və AKTA arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Memorandum birgə layihələrin həyata keçirilməsi, kadr hazırlığı və məşğulluq məsələlərində əlaqələndirilmiş fəaliyyətin təşkili, tələbələrin bilik və bacarıqlarının artırılması, elmi-nəzəri və praktiki tədqiqatların aparılması ilə bağlı qarşılıqlı əməkdaşlıq məsələlərini özündə ehtiva edir.





06.05.2024

## Universitetlər və AKTA üzvlərinin iştirakı ilə tədbir baş tutub

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin maliyyə dəstəyi ilə Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA) tərəfindən icra edilən "İnformasiya təhlükəsizliyi ixtisası üzrə elmi-metodiki tədris vasaitlərinin hazırlanması" layihəsinin hesabat tədbiri keçirilib.

Layihənin səhər yeməyi formatında təşkil olunmuş hesabat tədbirində informasiya təhlükəsizliyi ixtisasını təqdim edən aparıcı ali təhsil müəssisələrinin müəllim, professor heyəti, AKTA-nın üzvü olan şirkətlərin nümayəndələri və müstəqil ekspertlər iştirak ediblər.







17.05.2024

## AKTA ilə digər sahəvi assosiasiyalar arasında həmkar görüşü keçirilib

«Gələcək üçün Assosiasiyalar» layihəsi çərçivəsində digər sahəvi assosiasiyalarla tanışlıq məqsədilə "Cyberpoint" şirkətinin ofisində AKTA-nın təşkilatçılığı ilə görüş keçirilib. Görüşdə AKTA barədə məlumat verilib, iştirakçıların sualları cavablandırılıb və mümkün əməkdaşlıq əlaqələri müzakirə edilib.

**10.12.2024**

### "Energetika sektorunda kibertəhlükəsizlik" mövzusu üzrə dəyirmi masa formatında müzakirə keçirilib

10 dekabr 2024-cü il AKTA-nın təşkilatçılığı ilə "Energetika sektorunda kibertəhlükəsizlik" mövzusuna həsr olunmuş dəyirmi masa formatında görüş keçirilib. Kritik informasiya infrastrukturu sektorlarından biri qismində təsbit edilmiş energetika sektorunda kibertəhlükəsizliyin təmin edilməsi, o cümlədən mövcud imkanlar və çətinliklərin, eləcə də təhdidlər və onlarla mübarizə məsələlərinin müzakirəsinə həsr edilmiş görüşdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti, Energetika Nazirliyi, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, Enerji Məsələlərini Tənzimləmə Dövlət Agentliyi, "AzərEnerji" ASC və digər müvafiq qurum və təşkilatların, habelə AKTA üzvü olan şirkətlərin aidiyyəti sahə üzrə məsul rəhbər şəxsləri və nümayəndələri iştirak edib. Tədbir çərçivəsində Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzi tərəfindən yaradılmış kibertəhdid məlumat mübadiləsi platforması və onun imkanları iştirakçılara təqdim edilib.



## 2024-cü il ərzində keçirilmiş işgüzar görüşlər:

- "ESET" MMC şirkəti (10.01.2024)
- Böyük Britaniyanın Azərbaycandakı Səfirliyi (15.01.2024)
- ADA universiteti (16.01.2024)
- Azərbaycan Mikromaliyyə Assosiasiyası (AMFA) (31.01.2024)
- Qərbi Kaspi Universiteti (09.02.2024)
- ECSO («European Cyber Security Organization») (10.02.2024)
- "Allsafe Kibertəhlükəsizlik" MMC (13.02.2024 və 27.03.2024)
- "Гос ТЕХ" Rusiya Federasiyası (16.02.2024)
- Gürcüstanın Elmi Kiber Təhlükəsizlik Assosiasiyası (SCSA) (19.03.2024)
- "Cybersign" MMC (01.04.2024)
- "Bakotech | IT Solutions Distributor" (02.04.2024)
- TSARKA (Qazaxıstan) (03.04.2024)
- "Allsafe Kibertəhlükəsizlik" MMC (04.04.2024)

# KİBERTƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

## 2024-cü il ərzində keçirilmiş işgüzar görüşlər:

- Türkiye Siber Güvenlik Kümelenmesi (15.04.2024 və 17.05.2024)
- "Development AID" (16.04.2024)
- «Global Cyber Alliance" (19.04.2024)
- "İKTEX" MMC (13.05.2024)
- Qazaxıstan Respublikası, Dövlət Texniki Xidməti (13.05.2024)
- Qırğızıstan Respublikası, Milli Təhlükəsizlik Dövlət Komitəsi (13.05.2024)
- Özbəkistan Respublikası, Kibertəhlükəsizlik Mərkəzi, "CERT" (13.05.2024)
- Rumıniya Milli Kibertəhlükəsizlik Direktoratlığı (14.05.2024)
- BTK (Türkiye) (17.05.2024)
- USOM (Türkiye) (17.05.2024)
- Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (08.04.2024; 23.09.2024)
- "Brandefense" (Türkiyə) (17.05.2024)
- "BlackBox" (Türkiyə) (17.05.2024)
- Türkiye Siber Külüpler Birliyi (17.05.2024)
- Softprom (20.05.2024)
- Gulfstream (21.05.2024)
- MUK (21.05.2024)
- Smart IT (22.05.2024)
- Crowdstrike (22.05.2024)
- Ultra Technologies (23.05.2024)
- Trellix (23.05.2024)
- Huawei (29.05.2024)
- Kiber Təhlükəsizlik Platforması (02.07.2024)
- CyberARK (09.07.2024)
- Code Academy (16.07.2024)
- Karmasis (16.07.2024)
- DB Master (22.07.2024)
- Cybersign (24.07.2024)
- Invest Karabakh (24.07.2024)
- Türkiyə Respublikasının Səfirliyi (25.07.2024)
- MilliSec (22.08.2024)
- Cyberpoint (23.08.2024)
- Digital Umbrella (04.09.2024)
- TSARKA KZ (05.09.2024)
- Dialogue Events UK (06.09.2024)
- BakoTech (18.09.2024)
- Bakı Biznes Universiteti (03.10.2024)
- KZ-CERT (Qazaxıstan) (10.10.2024)
- "Advanced Tech" (Özbəkistan) (22.10.2024)
- "TAG International" (01.11.2024)
- Pasha Holding (03.11.2024)
- "Silkroad İnnovation Hub" (04.11.2024)
- Regional İnkişaf İctimai Birliyi (21.11.2024)
- Azərbaycan İnternet Forumu (22.11.2024)
- "GRYPHON" (28.11.2024)
- Almaniya Əməkdaşlıq Təşkilatı (29.11.2024)
- İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (29.11.2024)
- "Infosec Cyber Security" MMC (02.12.2024)
- "IT Alliance" (Özbəkistan) (04.12.2024)
- Odlar Yurdu Universiteti (04.12.2024)
- Gais Cyber Security (09.12.2024)



MİLLİ KİBERTƏHLÜKƏSİZLİK FORUMU 2024

## FORUM PANELLƏRİ

- Kritik informasiya infrastrukturunun təhlükəsizliynə dair Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin təcrübəsi
- Azərbaycan Respublikasının kibertəhlükəsizlik ekosisteminin cari vəziyyəti
- Kibertəhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlıq
- Kibertəhlükəsizlik üzrə təhsil və insan resursları
- Kiberdiaspora

15 ÖLKƏ

500+ İŞTİRAKÇI

30+ SPİKER

5 PANEL

15 ŞİRKƏT STENDİ

01.06.2024

## "III Milli Kibertəhlükəsizlik Forumu" keçirilib

Cari ilin 1 iyun tarixində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşkilatçılığı və "Azerconnect Group"un əsas tərəfdaşlığı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "III Milli Kibertəhlükəsizlik Forumu" baş tutub. Forumun əsas məqsədini kibertəhlükəsizlik ekosisteminin inkişafına töhfə verən qurum, təşkilat və şirkətlərin, eləcə də tərəfdaş ölkələrin nümayəndələri və ekspertləri ilə birgə müzakirələrin həyata keçirilməsi təşkil edib.

500 nəfərdən çox mütəxəssisin iştirak etdiyi Forum çərçivəsində kibertəhlükəsizlik sahəsi üzrə aidiyyəti yerli və xarici qurum, təşkilat və şirkətlərin rəhbər vəzifəli şəxslərinin, eləcə də mütəxəssislərin çıxışları dinlənilib.

Forumun tərəfdaşları "Azerconnect Group" və "Cisco" şirkətləri, qızıl sponsorları isə "Cyberpoint", "Caspel", "Code academy", "Eset", "MUK", "Gulfstream", "Smart İT" və "Crowdstrike" şirkətləridir.

Forum haqqında ətraflı məlumatı www.cyberforum.az saytından əldə etmək mümkündür.






## 5 türk dövləti kibertəhlükəsizliklə bağlı Bakıda toplanıb

AKTA-nın təşkilatçılığı ilə 1 iyun tarixində baş tutan "III Milli Kibertəhlükəsizlik Forumu"nda "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinə dair Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin təcrübəsi" adlı panel müzakirəsi baş tutub.









Azərbaycan Kibertəhlükəsizlik
Təşkilatları Assosiasiyası

## Azərbaycan Respublikasının kibertəhlükəsizlik ekosisteminin cari vəziyyəti müzakirə olunub

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) təşkilatçılığı ilə 1 iyun tarixində baş tutan "III Milli Kibertəhlükəsizlik Forumu"nda "Kibertəhlükəsizlik ekosisteminin cari vaziyyəti" adlı panel müzakirəsi baş tutub.
Ölkəmizdə informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyin təmin olunması sahəsində səlahiyyətli, o cümlədən müxtəlif sahələr üzrə faaliyyət göstərən qurumların nümayəndələrinin bir araya gəldiyi paneldə kibertəhlükəsizlik ekosisteminin cari vaziyyət müzakirə edilib və ekosistemin inkişaf etdirilməsinə dair təklif və tövsiyələr səslandirilib.







## Kibertəhlükəsizliyin təmin olunması sahəsində beynəlxalq əməkdaşlığın rolu və əhəmiyyəti müzakirə olunub

Azarbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) təşkilatçılığı ilə 1 iyun tarixində baş tutan "III Milli Kibertəhlükəsizlik Forumu"nda "Kibertəhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlıq" adlı panel müzakirəsi baş tutub.






## Ali təhsil müəssisələrinin rəhbərlərinin iştirakı ilə kibertəhlükəsizlik üzrə təhsil və insan resurslarına dair məsələlər müzakirə olunub

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) təşkilatçılığı ilə keçirilən "III Milli Kibertəhlükəsizlik Forumu"nda informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində kadr hazırlığını təmin edən ali təhsil müəssisələrinin rəhbərlərinin iştirakı ilə "Kibertəhlükəsizlik üzrə təhsil və insan resursları" adlı panel müzakirəsi baş tutub.







## Kibertəhlükəsizlik və İT sahələri üzrə xarici ölkələrdə çalışan həmvətənlərimizin iştirakı ilə "Kiberdiaspora" adlı panel müzakirəsi baş tutub

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) təşkilatçılığı ilə keçirilən "III Milli Kibertəhlükəsizlik Forumu"nda kibertəhlükəsizlik və İT sahələri üzrə xarici ölkələrdə çalışan həmvətənlərimizin iştirakı ilə "Kiberdiaspora" adlı panel müzakirəsi baş tutub






# TƏDBİRLƏR

**13.03.2024**

## AKTA İdarə Heyəti qanunvericilikdə sahibkarlığın dəstəklənməsi ilə bağlı aparılan islahatların biznes mühitinə təsirinə dair ictimai müzakirədə iştirak edib

Cari ilin 13 mart tarixində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi - KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə "Qanunvericilikdə sahibkarlığın dəstəklənməsi ilə bağlı aparılan islahatların biznes mühitinə təsiri imkanları" mövzusunda növbəti ictimai müzakirə keçirilib. Tədbirdə, həmçinin Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA) İdarə Heyətinin sədri Elvin Balacanov, sədr müavini Rauf Cabarov və İdarə Heyətinin üzvü, "All In One Technologies" şirkətinin baş icraçı direktoru Məmməd Kərimli iştirak edib.



**03.04.2024**

## İctimai təşkilatların görüşü keçirilib



Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2024-cü il üzrə böyük və orta qrant müsabiqələrinin qalibləri olan QHT-lərin rəhbərləri, təmsilçiləri ilə görüş keçirilib.
Görüşdə 2024-cü il üzrə böyük qrant müsabiqəsinin qaliblərindən olan Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası da təmsil olunub.

**03.05.2024**

## AKTA Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən "İctimai Proseslər Media Müstəvisində" adlı forumda təmsil olunub



13.05.2024

## AKTA Mingəçevir Dövlət Universitetində (MDU) keçirilən "Yaşıl İnformasiya Texnologiyaları həftəsi"nin açılış tədbirində iştirak etdi

Cari ilin 13 may tarixində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının nümayəndə heyəti "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Mingəçevir Dövlət Universitetində (MDU) keçirilən "Yaşıl İnformasiya Texnologiyaları həftəsi"nin açılış tədbirində iştirak edib.

İlk öncə, tədbirdə iştirak edən digər qonaqlar və universitet rəhbərliyi ilə birgə AKTA İdarə heyətinin sədri Elvin Balacanov, AKTA-nın İT mütəxəssisi Fərid Həsənov və Əməkdaşlıq və maarifləndirmə şöbəsinin mütəxəssisi Rəbiyyə Xuduyeva MDU tələbələrinin startap layihələrinin və məktəblilərin innovativ layihələrinin təqdimatında iştirak edib.









27.05.2024

## AKTA "Yeni Rəqabət Məcəlləsi: rəqabət qanunvericiliyində aparılmış dəyişikliklərin biznes mühitinə təsir imkanları" mövzusunda ictimai müzakirədə iştirak edib



Cari ilin 27 may tarixində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi - KOBİA yanında İctimai Şuranın və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin təşkilatçılığı ilə Rəqabət Məcəlləsinin biznes mühitinə təsir imkanlarına dair növbəti ictimai müzakirə keçirilib. Tədbirdə, AKTA İdarə Heyətinin sədr müavini Rauf Cabarov və AKTA üzvləri iştirak edib. Tədbirdə informasiya texnologiyaları və kibertəhlükəsizlik sahəsi üzrə fəaliyyət göstərən AKTA-nın üzv şirkətlərinin satınalma sahəsində

07.06.2024

## AKTA "İnformasiya Texnologiyalarının Trendləri" adlı Beynəlxalq Elmi Konfransda iştirak edib

Azərbaycan Dövlət Neft və Sənaye Universitetində COP29 çərçivəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-illiyinə həsr olunmuş "İnformasiya Texnologiyalarının Trendləri" adlı Beynəlxalq Elmi Konfrans keçirilib.

Ənənəvi olaraq, hər il keçirilən konfransda kibertəhlükəsizlik mövzusuna xüsusi diqqət ayrılmışdır. AKTA-nın sədr müavini Rauf Cabarov konfransın açılışında çıxış edib və kibertəhlükəsizlik sahəsində ölkəmizin son uğurları, elmi işlərin və tədqiqat layihələrinin önəmindən danışmışdır.





**27-28.06.2024**

## AKTA Beynəlxalq elmi-praktik konfransda iştirak edib

27 və 28 iyun tarixlərində Milli Aviasiya Akademiyasının təşkilatçılığı ilə "Süni intellekt texnologiyaları və aerokosmik problemlər" adlı II beynəlxalq elmi-praktik konfrans keçirilib.
AKTA İdarə Heyətinin sədr müavini Rauf Cabarov konfransda təqdimat ilə çıxış etmişdir. O, kritik informasiya infrastrukturu sahəsi hesab edilən aviasiya sektorunda mümkün kibertəhlükəsizlik təhdidləri və ölkəmizdə kritik informasiya infrastrukturunun kibertəhlükəsizliyi istiqamətində aparılan işlər barədə məlumat verib.



**30.09.2024**

## "Vətəndaş cəmiyyəti milli-mənəvi dəyərlərə yönəlmiş ideoloji hücumlara qarşı" mövzusu üzrə ictimai müzakirə keçirilib.

30 sentyabr tarixində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə keçirilmiş ictimai müzakirədə iştirak edən AKTA sədri Elvin Balacanov və AKTA-nın Tədqiqat və inkişaf şöbəsinin müdiri Təbriz Cəfərov tərəfindən milli-mənəvi dəyərlərə yönəlmiş ideoloji hücumlara qarşı mübarizə sahəsində vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsinə dair müvafiq təkliflər təqdim edilib.









21.10.2024

## AKTA Milli Məclisdə "COP29-a qarşı hibrid təhdidlər" mövzusunda keçirilən ictimai müzakirədə təmsil olunub

Oktyabrın 21-də Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının "COP29-a qarşı hibrid təhdidlər" mövzusunda ictimai müzakirəsi keçirilib. İclasda Milli Məclisin deputatları, beyin(araşdırma) mərkəzlərinin nümayəndələri, vətəndaş cəmiyyəti təmsilçiləri, ekspertlər, parlament Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov iştirak ediblər.
İctimai müzakirədə iştirak edən AKTA İdarə Heyətinin sədri Elvin Balacanov kibertəhlükəsizlik və ideoloji təhlükəsizlik məsələlərinin həmişə aktual olduğunu, bu sahədə həmrəyliyin nümayiş etdirilməsinin vacibliyini vurğulayıb. Eləcə də, ölkəmizə yönəlmiş yersiz təhdidlərin, o cümlədən kibertəhdidlərin və əsassız dezinformasiya kampaniyalarının qarşısının alınması, bu sahədə kompleks tədbirlərin həyata keçirilməsi ilə bağlı fikirlərini bölüşüb və təkliflərini səsləndirib.





23.10.2024

## AKTA-nın təşkilati dəstəyi ilə Azərbaycan Mikromaliyyə Konfransı baş tutub

Azərbaycan Mikromaliyyə Assosiasiyasının təşkilatçılığı və Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyasının təşkilati dəstəyi ilə "Dayanıqlı Mikromaliyyə üçün İnnovativ Həllər" mövzusuna həsr edilmiş 10-cu Azərbaycan Mikromaliyyə Konfransı keçirilib. AKTA tədbirin təşkilatçı tərəfdaşı olaraq, konfrans çərçivəsində kibertəhlükəsizlik panelini təşkil edib və paneldə AKTA idarə heyətinin üzvləri və ekspertlər çıxış ediblər.



14.11.2024

## COP29: AKTA sədri panel müzakirəsində çıxış etdi

Cari ilin 14 noyabr tarixində COP29 çərçivəsində kiberhücumların ətraf mühitin mühafizəsinə yaratdığı təhdidlər mövzusu ətrafında panel müzakirəsi baş tutub. "PAŞA Holding"in stendində baş tutan panel müzakirəsində iştirak edən AKTA İdarə Heyətinin sədri Elvin Balacanov tərəfindən ətraf-mühitin mühafizəsində kibertəhlükəsizliyin təmin olunmasının rolu, bu sahədə əsas çətinliklər və imkanlar barədə çıxış edilib, eləcə də sahə üzrə fəaliyyətin təkmilləşdirilməsinə dair tövsiyələr səsləndirilib.




21.11.2024

## Uşaqların zərərli və təhlükəli informasiyadan qorunmasına həsr olunmuş onlayn görüş keçirilib

AKTA-nın təşkilati dəstəyi, Regional İnkişaf" İctimai Birliyinin təşkilatçılığı, "Nar"ın dəstəyi və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və ADA Universitetinin tərəfdaşlığı ilə həyata keçirilən "Rəqəmsal cəmiyyətdə uşaqların zərərli və təhlükəli informasiyadan qorunması" layihəsi çərçivəsində dövlət rəsmilərinin və müvafiq sahə üzrə mütəxəssislərin uşaqlarla onlayn görüşü keçirilib.



## 2024-cü ildə ölkəmiz kibertəhlükəsizlik indeksində hazıradək ən yüksək göstəricisini əldə edib

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyanın fəaliyyət istiqamətlərindən biri də kibertəhlükəsizlik sahəsində mövcud olan beynəlxalq reytinq və hesabatlarda Azərbaycan Respublikasının mövqeyinin daha da yaxşılaşdırılmasına dair çoxtərəfli dəstəyin verilməsidir.

2023-cü il ərzində Azərbaycan Respublikasında kibertəhlükəsizliyin təmin olunması sahəsində həyata keçirilən sistemli tədbirlərin AKTA-nın müvafiq indikatorlar üzrə əsaslandırılmış təqdimatı nəticəsində 176 ölkənin qiymətləndirildiyi "Milli Kibertəhlükəsizlik İndeksi"nin ("National Cybersecurity Index") reytinq cədvəlində Azərbaycan Respublikasının mövqeyinin 36 pillə qalxaraq 86-cı yerdən 50-ci yerə irəliləməsi təmin olunmuşdur.

Keçən ilin sentyabr ayından etibarən isə adıçəkilən indeks üzrə yeni qiymətləndirmə kriteriyalarına əsaslanan metodologiyanın tətbiq olunmasına başlanılıb və hazıradək 39 ölkənin qiymətləndirilməsi həyata keçirilib. AKTA-nın tədqiqat komandası tərəfindən yeni indikatorlar üzrə də araşdırma aparılıb və kibertəhlükəsizliyin təmin olunması sahəsində ölkədə həyata keçirilmiş tədbirlərə dair məlumatlar sistemləşdirilərək nəzərə alınması üçün təqdim edilib.

Beləliklə, yeni indeks üzrə hazıradək 57 ölkənin 49 indikator üzrə qiymətləndirildiyi reytinq cədvəlində Azərbaycan Respublikası **73.33 balla 19-cu pillədə** qərarlaşıb. Qeyd olunmalıdır ki, bu göstərici hazıradək ölkəmiz tərəfindən əldə olunmuş ən yüksək göstəricidir. Belə ki, 2016-2023-cü illər ərzində indeksdə ölkəmiz tərəfindən əldə olunmuş ən yüksək bal 63.64 olub.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, qiymətləndirmənin əsaslandığı 49 indikatorun 35-i üzrə AKTA tərəfindən təqdim edilmiş cavablar tam qəbul olunaraq qiymətləndirmədə nəzərə alınıb. Digər indikatorlar üzrə də ölkəmizdə həyata keçirilən fəaliyyətin tam və obyektiv qiymətləndirilməsi, ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması məqsədilə hazırda tərəfimizdən əlavə tədbirlər həyata keçirilir, habelə mütəmadi olaraq müvafiq məlumatlar yenilənərək indeksdə nəzərə alınması üçün təqdim edilir.

Məlumat üçün qeyd olunmalıdır ki, Estoniyanın Elektron İdarəçilik Akademiyası Fondu tərəfindən hazırlanan və təkmilləşdirilən "Milli Kibertəhlükəsizlik İndeksi" kibertəhlükəsizliyin təmin edilməsi və kiber insidentlərin idarə olunması üzrə ölkələrin hazırlığını real vaxt rejimində ölçən qlobal indeksdir.






## Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən dərc olunmuş "Qlobal Kibertəhlükəsizlik İndeksi 2024" təqdim olunub

12 sentyabr tarixində Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən dərc olunmuş "Qlobal Kibertəhlükəsizlik İndeksi 2024" (Global Cybersecurity Index 2024) 194 ölkənin 20 indikator üzrə 83 sual ətrafında qiymətləndirilməsi əsasında hazırlanıb. Azərbaycan Respublikasının qlobal kibertəhlükəsizlik indeksi üzrə göstəricisinin yüksəlməsi, 100 mümkün xaldan 93.76 xal toplaması və "təkmil səviyyə"də qərarlaşması bu sahədə son illər ərzində ölkəmizdə həyata keçirilmiş uğurlu fəaliyyətin nəticəsi kimi qiymətləndirilməlidir.

### "Qlobal Kibertəhlükəsizlik İndeksi 2024" üzrə əsas məqamlar və tövsiyələr barədə AKTA tərəfindən məlumat hazırlanmışdır.

**ƏTRAFLI MƏLUMAT ÜÇÜN SKAN EDİN:**

## Azerbaijan

GCI 5th Edition Country Profile




**Area(s) of Relative Strength**
Legal Measures
Cooperation Measures

**Area(s) of Potential Growth**
Capacity Development Measures
Technical Measures
Organizational Measures

**Tier Performance**
T2: Advancing




**Country Score**
out of maximum 20 points per pillar

| Legal Measures | Technical Measures | Organization Measures | Capacity Development | Cooperation Measures |
|---|---|---|---|---|
| 20 | 18.02 | 18.05 | 17.69 | 20 |

*Countries are classified according to www.itu.int

## "İnformasiya təhlükəsizliyi ixtisası üzrə elmi-metodiki vəsaitlərinin hazırlanması" layihəsi uğurla icra edilib

"Təhsildə könüllü fəaliyyətin təşkili qrant müsabiqəsi" çərçivəsində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən dəstəklənən "İnformasiya təhlükəsizliyi ixtisası üzrə elmi-metodiki tədris (çap və onlayn) vəsaitlərinin hazırlanması" adlı qrant Layihəsinin icrasına 01 yanvar 2024-cü il tarixindən etibarən başlanmışdır. Maraqlı tərəflər arasında ictimai dinləmənin təşkil edilməsi ilə başlanan layihədə ilkin olaraq İnformasiya təhlükəsizliyi ixtisası üzrə fənn sillabusları hazırlanmışdır. Daha sonra 6 çap və 6 elektron tədris metodiki vəsait (3 fənn üzrə) hazırlanaraq, müvafiq ali təhsil müəssisələrinə təqdim edilmişdir və təlimlər həyata keçirilmişdir. Layihənin yekun tədbirləri 2024-cü ilin aprel-may ayları ərzində icra edilmiş və donora hesabat təqdim edilmişdir. Hesabat məqbul hesab edilmişdir.









**31.10.2024**

## "Milli Kibertəhlükəsizlik İndeksi" təqdim olunub

AKTA tərəfindən Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə icra edilən "Milli Kibertəhlükəsizlik İndeksinin yaradılması və ölkədə kibertəhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi" layihəsinin icrası gedişində 17 təşkilat arasında 20 kibertəhlükəsizlik meyarı əsasında qiymətləndirilmə həyata keçirilmişdir. Layihə çərçivəsində müvafiq kibertəhlükəsizlik meyarları "Təşkilati və idarəetmə ölüçləri", "Texniki ölçülər", "Təhsil və Təkmilləşmə ölçüləri" və "Əməkdaşlıq ölçüləri" adlı 4 başlıqda müəyyən edilmişdir. Həmçinin, layihənin tədqiqat qrupu tərəfindən elmi araşdırmaya dair hesabat sənədi və ölçü hesabatı hazırlanmışdır.

### Nümunəvi qiymətləndirmə üzrə faiz nisbəti









## AKTA qlobal kibertəhlükəsizlik mükafatının qalibi seçilib

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA) tərəfindən icra edilən "Kiber yay məktəbi" ("Cyber Summer School") layihəsi OIC-CERT Qlobal Kibertəhlükəsizlik Mükafatı 2024" ("OIC-CERT Global Cybersecurity Award 2024") qalibi seçilib. Layihə "Tərəqqi və rifah naminə kibertəhlükəsizlikdə innovasiya" devizi altında təqdim edilən mükafata layiq görülüb.






## AKTA-nın veb saytında üzvlər üçün şəxsi elektron kabinet və elektron məhsul və xidmət kataloqu yaradılıb

AKTA-nın yeni saytında qurulmuş sistem üzvlər tərəfindən öz məlumatlarını avtonom qaydada yeniləmək və zəruri bildikləri məlumatları əlavə etmək imkanı yaradır. Şəxsi kabinet vasitəsilə üzvlər öz məhsul və xidmətlərini kataloqa əlavə etmək, yeni vakansiyaları elan etmək və AKTA ilə yazışmanı sistem üzərindən aparmaq imkanı əldə edirlər.

Hesabat dövründə elektron kataloqun imkanları genişləndirilmişdir. Elektron şəxsi kabinetdə üzvlər haqqında olan məlumat modulları elektron kataloq ilə əlaqələndirilmişdir. Elektron kataloqa 16 kibertəhlükəsizlik məhsul növü üzrə alt kateqoriyalar, zəruri sorğu bölmələri əlavə edilmişdir. Sistemdə sorğuları qiymətləndirmək üçün ekspert qiymətləndirmə modulu qurulmuşdur. Bir neçə ekspert müstəqil şəkildə təqdim edilmiş məhsul və xidmətləri qiymətləndirə biləcək və yekunda sistem tərəfindən obyektiv yekun nəticə təqdim olunacaqdır. Hal-hazırda kataloqda 30-dan çox məhsul və xidmət öz əksini tapıb.




**Kataloqun veb səhifəsi:**
**https://akta.az/az/catalog**

# 1-Cİ SORĞU NƏTİCƏLƏRİ

## Kibertəhlükəsizliklə bağlı əhali arasında məlumatlılıq səviyyəsinin ölçülməsi məqsədilə 1-ci sorğu keçirilib

Cari ilin yanvar ayı ərzində kibertəhlükəsizliklə bağlı əhali arasında məlumatlılıq səviyyəsinin ölçülməsi məqsədilə Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası tərəfindən onlayn anonim sorğu keçirilmişdir.

Müxtəlif cins və yaş kateqoriyalarını əhatə etmiş sorğuda ümumilikdə **521 respondent** tərəfindən **17 sual** cavablandırılmışdır.

Sorğunun nəticələrinin kibertəhlükəsizlik sahəsində əhalinin maarifləndirilməsi məqsədilə həyata keçiriləcək tədbirlərin effektivliyinin və səmərəliliyinin artırılmasında istifadə olunmasının məqsədəuyğunluğu nəzərə alınaraq, suallar üzrə fərdi cavablara dair statistik məlumatlar əsasında məlumatlar və tövsiyələr hazır edilərək, ictimaiyyətə təqdim edilmişdir.












# 2-Cİ SORĞUNUN NƏTİCƏLƏRİ

## Kibertəhlükəsizliklə bağlı əhali arasında məlumatlılıq səviyyəsinin ölçülməsi məqsədilə 2-ci sorğu keçirilib

Cari ilin noyabr ayı ərzində kibertəhlükəsizliklə bağlı əhali arasında məlumatlılıq səviyyəsinin ölçülməsi məqsədilə Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası tərəfindən 2-ci onlayn anonim sorğu keçirilmişdir.

Müxtəlif cins və yaş kateqoriyalarını əhatə etmiş sorğuda ümumilikdə **450 respondent** tərəfindən **10 sual** cavablandırılmışdır.

Sorğunun nəticələrinin kibertəhlükəsizlik sahəsində əhalinin maarifləndirilməsi məqsədilə həyata keçiriləcək tədbirlərin effektivliyinin və səmərəliliyinin artırılmasında istifadə olunmasının məqsədəuyğunluğu nəzərə alınaraq, suallar üzrə fərdi cavablara dair statistik məlumatlar əsasında məlumatlar və tövsiyələr hazır edilərək, ictimaiyyətə təqdim edilmişdir.












# QRANT LAYİHƏLƏRİ

| Layihənin adı | Donor | İcra vəziyyəti | Görüşən işlər və nəticələr |
|---|---|---|---|
| **İnformasiya təhlükəsizliyi ixtisası üzrə elmi-metodiki tədris (çap və onlayn) vəsaitlərinin hazırlanması** | Elm və Təhsil Nazirliyi | İcra edilib | Layihə çərçivəsində maraqlı tərəflər arasında ictimai dinləmənin təşkil edilməsi, informasiya təhlükəsizliyi ixtisası üzrə fənn sillabuslarının hazırlanması, 6 çap və 6 elektron tədris metodiki vəsaitin (3 fənn üzrə) hazırlanaraq, müvafiq ali təhsil müəssisələrinə təqdim edilməsi və 10 ali təhsil müəssisəsində təlim və seminarların həyata keçirilməsi təmin edilmişdir. Ətraflı Bax: səhifə 24. |
| **«Gələcək üçün Assosiasiyalar» layihəsi çərçivəsində Assosiasiya potensialının artırılması və sub-qrant layihəsi** | Azərbaycan Mikromaliyyə Assosiasiyası | İcra edilib | Layihə çərçivəsində AKTA əməkdaşlarının bilik və bacarıqlarının inkişafı məqsədilə təlimlər keçirilib və bu təlimlərdə əməkdaşlar iştirak edib, Digər assosiasiyalarla əməkdaşlıq əlaqələri inkişaf etdirilib və sub-qrant sayəsində kibertəhlükəsizlik məhsul və xidmətlər kataloqu hazırlanıb. |
| **İT və kibertəhlükəsizlik sahəsində yerli təhsil potensialının gücləndirilməsi** | BP Azərbaycan Nümayəndəliyi | Layihənin icrası davam edir | Layihə çərçivəsində AKTA-nın dəstəyi ilə dövlət ali təhsil müəssisəsində kibertəhlükəsizlik laboratoriyasının yaradılması nəzərdə tutulur. Bu məqsədlə layihə icra müqaviləsi imzalanmış, laboratoriyaya dair tələblər müəyyən edilmiş, avadanlıq və proqram təminatı əldə edilmiş və laboratoriyanın qurulmasına start verilmişdir. |
| **Milli Kibertəhlükəsizlik İndeksinin hazırlanması** | Qeyri-Hökumət Təşkilatlarına Dövlət dəstəyi Agentliyi | İcra edilib | Layihədə nəzərdə tutulmuş Milli Kibertəhlükəsizlik İndeksinin hazırlanmasi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və ümumiləşdirilməsi üzrə elmi araşdırma aparılmış və 90 səhifəlik hesabat sənədi hazırlanmışdır. Həmçinin, Milli Kibertəhlükəsizlik İndeksi üzrə məlumatların toplanması və nəticələrin təqdim edilməsi üçün xüsusi portalın hazırlanmasına start verilmişdir. |

# QRANT LAYİHƏLƏRİ

| Layihənin adı | Donor | İcra vəziyyəti | Görüşən işlər və nəticələr |
|---|---|---|---|
| **Kiber böhran idarəetmə planının hazırlanmasına dəstək üzrə Ekspert Missiyası** | Avropa Birliyi TAEİX aləti (ekspert missiyası) | Layihə təsdiq edilib, icrası üzrə plan təqdim edilib. | Avropa Komissiyası ekspert missiyasına dair müraciəti 11 sentyabr tarixində təsdiq etmişdir və ekspert missiyasının 2025-ci ilin birinci rübündə keçirilməsi planlaşdırılır. Bu məqsədlə hazırlıq işlərinə başlanılıb. |
| **Avropa Birliyi ölkəsinə kibertəhlükəsizlik üzrə təcrübə səfəri** | Avropa Birliyi TAEİX aləti («study visit») | Layihə təsdiq edilib, icrasına start verilir. | Avropa Komissiyası AKTA-nın «Kibercinayətkarlıqla mübarizə, kiber təhdidlərin qarşısının alınması, ictimai maarifləndirmənin gücləndirilməsi: institusional, təşkilati və hüquqi çərçivəyə baxış» mövzusunda Avropa Birliyi ölkəsinin təcrübəsinin öyrənilməsi üzrə TAEİX səfəri üçün müraciəti təsdiq edib. Səfərin təşkili işləri davam etdirilir. |
| **Milli Kibertəhlükəsizlik İndeksi əsasında KOB-ların kibertəhlükəsizliyinin ölçülməsi** | KOBİA | Layihə müraciəti edilib. | KOBİA tərəfindən elan edilmiş qrant müsabiqəsinə müraciət üçün “Milli Kibertəhlükəsizlik İndeksi əsasında KOB-ların kibertəhlükəsizliyinin ölçülməsi” layihəsinin təklifi işlənib hazırlanmış və müsabiqəyə təqdim edilmişdir. |
| **İnformasiya təhlükəsizliyi ixtisası üzrə elmi-metodiki tədris vəsaitlərinin hazırlanması** | Elm və Təhsil Nazirliyi | Layihə müraciəti edilib. | “İnformasiya təhlükəsizliyi ixtisası (Kriptoqrafiyanın əsasları; Elektronika və IOT cihazlarının təhlükəsizliyi; Sosial mühəndislik fənləri) üzrə elmi-metodiki tədris vəsaitlərinin hazırlanması” layihəsinin təklifi hazırlanaraq, Elm və Təhsil Nazirliyinin növbəti qrant müsabiqəsinə təqdim edilmişdir. |
| **Rəqəmsallaşmanın dəstəklənməsi və kibertəhlükəsizlik üzrə maarifləndirmə** | Avropa Kommisiyası | Layihə müraciəti edilib. | Şərqi tərəfdaşlıq ölkələrində «QHT-lərin rəqəmsallaşmasının dəstəklənməsi və kibertəhlükəsizlik üzrə maarifləndirilməsi» mövzusunda layihə müraciəti təqdim edilmişdir. |
| **Şərq tərəfdaşlığı çərçivəsində İT assosiasiyalar arasında əməkdaşlıq** | Almaniya Əməkdaşlıq Təşkilatı | Mümkün layihə təklifi müzakirə edilir. | KOB-ların rəqəmsal transformasiyası potensialın gücləndirilməsi layihəsi çərçivəsində İT assosiasiyalar arasında əməkdaşlıq sub-layihənin müzakirəsi davam etdirilir. |

## 31.10.2024
## "Milli Kibertəhlükəsizlik İndeksi" təqdim olunub

Cari ilin 31 oktyabr tarixində Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA) tərəfindən icra edilmiş "Milli Kibertəhlükəsizlik İndeksinin yaradılması və ölkədə kibertəhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi" layihəsinin təqdimat mərasimi keçirilib.
Tədbirdə kibertəhlükəsizliyin təmin olunması sahəsində səlahiyyətli dövlət qurumlarının, o cümlədən Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin, habelə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin nümayəndələri, eləcə də AKTA-nın inzibati heyəti, üzvləri və ekspertləri iştirak edib.







## Qərbi Kaspi Universiteti müəllim və tələbələrin tədqiqatları üçün yeni layihələrə başlayır

Universitet bu layihələri bir sıra tərəfdaşlarla əməkdaşlıq şəraitində həyata keçirəcək.
Bununla bağlı universitetdə keçirilən görüşdə "Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası"nın idarə heyətinin sədri Elvin Balajanov, "A2Z Technologies" şirkətinin kommersiya şöbəsinin müdiri Anar Hümbətov və "Cyberpoint" şirkətinin marketinq və satış şöbəsinin müdiri Mehman İsgəndərovla müzakirələr aparılıb.
Görüş zamanı əməkdaşlıq əlaqələrinin əhəmiyyəti və perspektivləri, eyni zamanda tələbələr üçün təcrübə və iş imkanları nəzərdən keçirilib.





## "Mənim peşəm İT mütəxəssisidir" adlı layihəyə yekun vurulub

Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) texniki dəstəyi ilə Avropa Tələbələr Forumu-Sumqayıt ictimai birliyinin "Mənim peşəm İT mütəxəssisidir" adlı layihəyə yekun vurulub. Layihə çərçivəsində İKT sahəsində təhsil alan tələbələr üçün təlimlər təşkil edilib. Təlimlar AKTA-nın əməkdaşı Müşərrəf Məmmədova tərəfindən keçirilib.






## AKTA «Gələcək Üçün Assosiasiyalar» layihəsində uğurla iştirak edib

Azərbaycan Mikromaliyyə Assosiasiyası (AMFA) tərəfindən "Gələcək üçün Assosiasiyalar" layihəsi çərçivəsində Azərbaycanda biznes və peşəkarlar assosiasiyaların bacarıqlarını artırmaq və iqtisadi inkişafında rolunu gücləndirmək istiqamətində fəaliyyət həyata keçirilir.

AKTA qeyd olunan layihədə uğurla iştirak edib. Bu layihə çərçivəsində AKTA əməkdaşlarının bir sıra maraqlı mövzularda keçirilən 20-ə yaxın təlimdə bilik və bacarıqları artırılıb, ekspert dəstəyi əldə edilib, sub-qrant layihəsi icra olunub və digər assosiasiyalar ilə əməkdaşlıq əlaqələri qurulub.








13.08.2024

## "Vətən Borcu" layihəsinin I dalğası üzrə məzunlara həftəsonu sertifikatlar təqdim edildi

Şəhid övladları və qazi qardaşlarımızın "Kibertəhlükəsizlik" sahəsində potensial kadr kimi yetişdirilməsi məqsədilə həyata keçirilmiş "Vətən Borcu" layihəsinin I dalğası üzrə məzunlara sertifikatlar təqdim edildi.
Layihə Cybernetics Milli Kibertəhlükəsizlik şirkəti və Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının birgə təşkilatçılığı və ZƏFƏR Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin dəstəyi ilə baş tutmuşdur.





## AKTA Avrasiya İT forumunda iştirak edib

20 və 21 fevral tarixlərində "Rəqəmsal müstəqillik uzunmüddətli beynəlxalq əməkdaşlığın əsasıdır" mövzusunda Moskva şəhərində Avrasiya İT forumu keçirilib. Dövlətlərin rəqəmsallaşmasına həsr edilən forumda müxtəlif mövzularla yanaşı "rəqəmsal dövrdə dövlətlərin informasiya təhlükəsizliyi" adlı panel müzakirələri aparılıb.






**23-25.02.2024**

## Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası "4-cü Türkiyə Kiber Təhlükəsizlik Zirvə Toplantısı"nda təmsil olunub

Cari ilin 23 - 25 fevral tarixlərində Türkiyə Respublikasının Antalya şəhərində Türkiyə Kiber Təhlükəsizlik Klasterinin ("Türkiye Siber Güvenlik Kümelenmesi") təşkilatçılığı ilə "4-cü Türkiyə Kiber Təhlükəsizlik Zirvə Toplantısı" keçirilib.
Tədbirdə Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA), habelə AKTA üzvü və tərəfdaşı olan şirkətlər - "A2Z Technologies", "B&B Security Alliance", "Defscope", "Azintelecom" və "Techpro DC" təmsil olunub.





## AKTA nümayəndə heyəti 12-ci Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak edib

Fevralın 28-də Rusiyanın Stavropol diyarının Mineralnıe Vodı şəhərində 12-ci Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib. Forumda AKTA İdarə Heyətinin sədr müavini Rauf Cabarov, AKTA İdarə Heyətinin üzvü olan "Caspel" şirkətinin rəhbəri Ceyhun Quliyev və AKTA üzvü olan "Digital Umbrella" şirkətinin təsisçisi və rəhbəri Ulduza Xəlilovanın təmsil olunduğu nümayəndə heyəti





**17.05.2024**

## Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası "4-cü Türkiyə Kiber Təhlükəsizlik Zirvə Toplantısı"nda təmsil olunub

Cari ilin 17 may tarixində Türkiyə Respublikasının Ankara şəhərində Türkiyənin İnformasiya Texnologiyaları və Kommunikasiya Təşkilatı (BTK), Milli Kiber İnsidentlərlə Mübarizə Mərkəzi (USOM), Türkiyə Kiber Təhlükəsizlik Klastrı və sahə üzrə fəaliyyət göstərən bir sıra Türkiyə şirkətlərinin təşkilatçılığı və Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) dəstəyi ilə "Hacktrick" adlı kibertəhlükəsizlik konfransı və 19 may tarixinədək davam etmiş yarış və təlimlərin açılış tədbiri baş tutub.






**17.07.2024**

## Şərq Tərəfdaşlığı ölkələrinin İKT və kibertəhlükəsizlik assosiasiyaları arasında əməkdaşlıq imkanları müzakirə edilib

17 iyul tarixində Almaniya Əməkdaşlıq Təşkilatının (GİZ) təşəbbüsü ilə Azərbaycan, Gürcüstan, Moldova və Ukraynadan olan İKT və kibertəhlükəsizlik assosiasiyaları, universitet və İT klasterləri arasında görüş baş tutub.

Qeyd olunan görüş GİZ təşkilatının "Şərq Tərəfdaşlığı ölkələrində kiçik və orta müəssisələrin rəqəmsal transformasiyası" Proqramı çərçivəsində keçirilib. Görüşün məqsədini tərəfdaşların qarşılıqlı tanıtımı və ortaq maraqlar əsasında gələcək əməkdaşlığın qurulmasının təşviq edilməsi olub. Qeyd edilib ki, tərəfdaşlar arasında güclü əməkdaşlığın formalaşdırılması kiçik və orta biznes subyektlərinin (KOB-ların) rəqəmsallaşması və kibertəhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfələr verə bilər.

GİZ Azərbaycan ofisinin moderatorluğu ilə keçirilən görüşdə ölkəmizi Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) İdarə Heyəti, inzibati heyətin nümayəndələri və AKTA üzvləri təmsil edib. Görüşdə AKTA İdarə Heyətinin sədri Elvin Balacanov assosiasiyanın fəaliyyət istiqamətləri, məqsəd və hədəfləri, habelə görülmüş işlərə dair təqdimatla çıxış edib. AKTA İdarə Heyətinin sədr müavini Rauf Cabarov "KOB-ların rəqəmsal və təhlükəsiz transformasiyasına dəstək" adlı layihə təklifini iştirakçıların diqqətinə çatdırıb.





11.09.2024

## AKTA Qazaxıstanda Türk Dövlətləri Təşkilatı çərçivəsində kibertəhlükəsizlik sahəsində tərəfdaşlığın gücləndirilməsi ilə bağlı müzakirələrdə iştirak edib

11 sentyabr tarixində Qazaxıstan Respublikasının Almatı şəhərində "KazHackStan 2024" tədbiri çərçivəsində Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin nümayəndələrinin iştirakı ilə "Türk dünyasının rəqəmsal qalxanı: daha güclü təhlükəsizlik üçün tərəfdaşlıq" adlı panel müzakirəsi, habelə kibertəhlükəsizlik sahəsində strateji tərəfdaşlığın müzakirə olunduğu qapalı iclas baş tutub.

Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Macarıstanın aidiyyəti nümayəndələrinin iştirak etdiyi adıçəkilən panel müzakirələri və qapalı iclasda Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) sədri Elvin Balacanov, baş katib Fidan Əhmədova, həmçinin Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin (ETX) rəis müavini Elvin Şahverdiyev və Audit və komplayens şöbəsinin müdiri Elman Muradov iştirak edib.






09-10.10.2024

## "Kiber Təhlükəsizlik Sammiti – Mərkəzi Avrasiya" (CSS 2024) tədbiri həyata keçirilib

Cari ilin 9 - 10 oktyabr tarixlərində Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində Özbəkistan Milli Kibertəhlükəsizlik Mərkəzinin təşkilatçılığı ilə "Kiber Təhlükəsizlik Sammiti – Mərkəzi Avrasiya" (CSS 2024) tədbiri (https://www.cybersecuritycentraleurasia.com/) həyata keçirilib. Tədbirdə, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA), təşkilatın İdarə Heyətinin sədr müavini Rauf Cabarov və baş katib Fidan Əhmədova tərəfindən təmsil olunub.



# BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN İNKİŞAFI

10-11.10.2024

## AKTA beynəlxalq elmi-praktiki konfransda təmsil olunub

Cari ilin 10-11 oktyabr tarixlərində Tbilisi şəhərində Gürcüstan Elmi Kiber Təhlükəsizlik Assosiasiyası və İnternet İnkişafı Təşəbbüsünün birgə təşkilatçılığı ilə “Telekommunikasiya və Təhlükəsizlik” adlı beynəlxalq elmi-praktiki konfrans keçirilib.



14-18.10.2024

## AKTA dünyanın ən böyük texnologiya və startap tədbirində təmsil olunub




Cari ilin 14-18 oktyabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində dünyanın ən böyük texnologiya və startap tədbiri olan "GITEX GLOBAL 2024" (https://www.gitex.com/) baş tutub. Dünyanın 180-dən çox ölkəsindən on minlərlə ziyarətçinin, o cümlədən 400-dən çox qurum və təşkilatın nümayəndələrinin iştirak etdiyi tədbir çərçivəsində kibertəhlükəsizlik, süni intellekt, texnologiya sahəsində investisiyalar və trendlər, habelə məlumat bazası infrastrukturu və s. bir sıra məsələlərlə bağlı silsilə tədbir və konfranslar təşkil olunub.

28-30.10.2024

## AKTA San-Fransiskoda beynəlxalq nüfuzlu texnologiya və startap tədbirində təmsil olunub

Cari ilin 28-30 oktyabr tarixlərində San-Fransiskoda "TechCrunch Disrupt" adlı üç günlük beynəlxalq nüfuzlu texnologiya və startap tədbiri baş tutub. Qeyd edək ki, “TechCrunch Disrupt” dünyanın ən böyük startap tədbiri hesab olunur.
Tədbirdə AKTA-nın baş katibi Fidan Əhmədova və AKTA İdarə Heyətinin üzvü Ayaz Əhmədov iştirak edib.



# KİBER DİASPORA

## AKTA-nın təşəbbüsü ilə Kiber Diaspora yaradılıb. Kiber Diaspora çərçivəsində görüşlər keçirilib.

2024-cü ilin may ayında Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşəbbüsü ilə "Kiber Diaspora" icması yaradılıb. Qeyd edək ki, "Kiber Diaspora" ölkə xaricində İT və kibertəhlükəsizlik sahəsində çalışan peşəkar həmyerlilərimizin qlobal miqyaslı virtual icması və şəbəkələşmə platformasıdır. Hal-hazırda 20-ə yaxın həmyerlimiz Kiber Diasporanın üzvüdür. Üzvlər ABŞ, Kanada, Türkiyə, BƏƏ, Estoniya, Litva, Birləşmiş Krallıq və Polşada fəaliyyət göstərirlər.

2024-cü ilin sentyabr və oktyabr ayları ərzində Kiber Diaspora üzvləri ilə silsilə görüşlər keçirilib. Bu görüşlərdə informasiya texnologiyaları və kibertəhlükəsizlik üzrə ölkə xaricində çalışan həmyerlilərimiz öz fəaliyyətləri barədə məlumat verib, Kiber Diaspora çərçivəsində həyata keçirilməsi mümkün olan işlər müzakirə edilib. AKTA İdarə Heyətinin sədr müavini Rauf Cabarovun moderatorluğu ilə keçən görüşlərdə "Kiber Diaspora"nın mümkün fəaliyyət planı, layihə təklifləri və perspektiv əməkdaşlıqlar əsas müzakirə mövzusu olub.

## Kiber Diaspora üzvlərinin ictimaiyyətə yaxından tanıdılması məqsədilə müsahibələr hazırlanıb



10 ilə yaxındır dünyanın tanınmış şirkətlərində proqram mühəndisi kimi fəaliyyət göstərən "Kiber diaspora" üzvü olan həmvətənimiz - Adil Əliyevlə müsahibəni təqdim edirik



İnformasiya texnologiyaları və kibertəhlükəsizlik sahəsində 20 ilə yaxındır fəaliyyət göstərən "Kiber diaspora" üzvü olan həmvətənimiz - Cavid Şahmuradovla müsahibəni təqdim edirik

# MAARİFLƏNDİRMƏ VƏ KADR POTENSİALININ İNKİŞAFI

- Kibertəhlükəsizlik üzrə təlim və bootcamplar
- Yay düşərgələri
- Seminar və vebinarlar
- Kiber yarışlar - CTF və hakatonlar
- Ekspert bankı və ekspert qrupları
- Könüllü və təcrübə proqramları
- PR kanallar və media çıxışlar

**4000+** İŞTİRAKÇI

**34** SEMİNAR / VEBİNAR

**2** YARIŞ

**20** TƏLİM

Üzvlərlə birgə təlim və seminarlar → İştirakçıların ödənişsiz iştirakı → Sektor üçün peşəkar mütəxəssislər

## “Kiber Hüququn əsasları: Kiber məkanın hüquqi statusu və məsuliyyət məsələləri” mövzusu üzrə master-klass təşkil edilib

16.03.2024-cü il tarixdə Qafqaz Biznes Mərkazində ALSA Azərbaycan və Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası tərəfindən birgə əməkdaşlıq çərçivəsində “Kiber Hüququn əsasları: Kiber məkanın hüquqi statusu və məsuliyyət məsələləri barədə” Master-Klass baş tutmuşdur. Master-klass zamanı AKTA İdarə Heyəti sədri Elvin Balacanov AKTA-nın hüquqşünası Təbriz Raufoğlu çıxış etmiş və mövzu üzrə təqdimatlar göstərmişlər.






## AKTA-nın dəstəyi ilə «Cyber Bootcamp» təşkil olunub.

22-24 may tarixlərində AKTA, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Kapital Bank və Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə Şərurda gənclər üçün kibertəhlükəsizliklə bağlı düşərgə təşkil olunub.



## AKTA "CareerLAB" şəbəkəsinin panel müzakirəsində iştirak edib.

Gənclərin İnkişaf və Karyera Mərkəzinin təşkilatçılığı və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının tərəfdaşlığı ilə həyata keçirilən "CareerLAB" layihəsinin növbəti tədbiri AKTA-nın nümayəndələrinin iştirakı ilə 16 may tarixində Azərbaycan Texniki Universitetində baş tutub.
Gənclərin karyera planlamasına dəstək göstərilməsi və onların şəbəkələşməsini təmin etmək məqsədilə "İT sahəsində karyera planlaması və müasir dünyada süni intellektin rolu" mövzusunda panel müzakirə keçirilib.



## Mütəmadi olaraq maarifləndirici paylaşımlar edilməkdədir:












# MAARİFLƏNDİRMƏ VƏ KADR POTENSİALININ İNKİŞAFI

## Mütəmadi olaraq maarifləndirici paylaşımlar edilməkdədir:












# MAARİFLƏNDİRMƏ VƏ KADR POTENSİALININ İNKİŞAFI

## "CyberPulse" layihəsi çərçivəsində silsilə təlimlər keçirilib.

AKTA-nın təşkilati dəstəyi ilə "CyberPulse" layihəsi 2024-cü il ərzində icra edilib. Layihə çərçivəsində MilliSec Kiber Təhlükəsizlik Şirkətinin mütəxəssisləri tərəfindən ali təhsil müəssisələrinin tələbələri üçün fərqli təlimlər keçirilib.

Təlimdə tələbələrə SIEM (Security Information and Event Management) texnologiyalarının tətbiqi, xüsusilə "Splunk" platforması haqqında geniş məlumat verilib. Real dünyada rast gəlinən kibertəhlükəsizlik problemləri praktiki şəkildə nümayiş etdirilərək, iştirakçılara bu sahədə zəruri bacarıqlar öyrədilib.

Qeyd edək ki, "CyberPulse" layihəsinin əsas məqsədi kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlanması, həmçinin yeni nəsil İT mütəxəssisləri üçün öyrənmə və təcrübə imkanlarının yaradılmasıdır.

Təlimlər Dövlət Gömrük Komitəsinin Akademiyası, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Dövlət İqtisad Universitetində keçirilib.












## Tələbələrin kibertəhlükəsizlik üzrə maarifləndirilməsi məqsədilə "İnfoSEC 2024" layihəsi keçirilib.

Oktyabr ayının kibertəhlükəsizlik üzrə maarifləndirmə ayı olduğu nəzərə alınaraq, Azərbaycan Kiber Təhlükəsizlik Platforması AKTA ilə birlikdə ali təhsil müəssisələrində silsilə seminarlar təşkil edib. Seminarlarda informasiya təhlükəsizliyinin əsas problemləri, yeni texnologiyaların tətbiqi və kibertəhlükəsizliyin inkişafına yönəlmiş ən son hallər müzakirə olunub. İştirakçılar arasında həm dövlət, həm də özəl sektordan nümayəndələr, ekspertlər, eləcə də bu sahədə təhsil alan tələbələr yer alıb. Bu, həmçinin gələcəkdə informasiya təhlükəsizliyi üzrə ixtisaslaşan gənclərin inkişafına təkan vermək üçün mühüm rol oynayıb.
Seminarlar Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Bakı Dövlət Universitetidə keçirilib.











## “Kibertəhlükəsizlik məsələləri və kibercinayətkarlığa qarşı mübarizə” mövzusunda təlim keçirilib.

Ədliyyə Nazirliyinin və onun strukturuna daxil olan qurumların əməkdaşları üçün “Kibertəhlükəsizlik məsələləri və kibercinayətkarlığa qarşı mübarizə” mövzusunda AKTA sədri h.ü.f.d. Balacanov Elvin tərəfindən distant formada 02.10.2024-cü il tarixində ixtisasartırma təlimi keçirilib.






**05.11.2024**

## Cinayət Hüququ Klubunun təşkilatçılığı ilə Bakı Dövlət Universitetində keçirilən tədbirdə AKTA sədri h.ü.f.d. Elvin Balacanov “Azərbaycanda kibertəhlükəsizliyin hüquqi aspektləri” adlı məruzə ilə çıxış edib.





## “Rəqəmsal cəmiyyətdə uşaqların zərərli və təhlükəli informasiyadan qorunması” adlı kampaniya keçirilib.

“Rəqəmsal cəmiyyətdə uşaqların zərərli və təhlükəli informasiyadan qorunması” adlı kampaniya uğurla keçirilib.

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının tərəfdaşlığı, “Regional İnkişaf” İctimai Birliyinin təşkilatçılığı ilə 20 Noyabr – Ümumdünya Uşaq Hüquqları Gününə həsr edilmiş layihə həyata keçirilib. Layihə çərçivəsində Bakı, Gəncə, Lənkəran və Qəbələdə ümumilikdə 2400 məktəbli və valideynin iştirakı ilə 8 seminar keçirilib. Bu kampaniya çərçivəsində uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin edilməsi ilə bağlı geniş maarifləndirmə tədbirləri reallaşdırılıb. Kampaniyaya 20 dekabr tarixində keçirilmiş Debat Forumu ilə yekun vurulub.












**29.11.2024**

## Kibercinayətlərin istintaq metodikası Baş Prokurorluqda növbəti təlimin mövzusu olub

Noyabrın 27-dən 29-dək Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluq işçiləri üçün "Kibercinayətlərin aşkar edilməsi və istintaq metodikası" mövzusunda əyani və distant formada təlim keçirilib. Tədbirdə təlimçi qismində bu sahə üzrə peşəkar prokurorluq işçiləri ilə yanaşı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının rəhbəri və Vəkillər Kollegiyasının nümayəndəsi iştirak etməklə, qurumların





**30.11.2024**

## "Cybersecurity Skills Gap - Roadmap" mövzusunda seminar keçirilib

Noyabrın 29-da Sumqayıt Dövlət Universitetində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) təşkilatçılığı ilə kibertəhlükəsizlik sahəsinin müasir çağırışlarına həsr olunmuş "Cybersecurity Skills Gap - Roadmap" mövzusunda seminar keçirilib.





# MAARİFLƏNDİRMƏ VƏ KADR POTENSİALININ İNKİŞAFI

**Azərbaycan Respublikasının Vəkillər Kollegiyası (ARVK) və Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) birgə təşkilatçılığı ilə ARVK üzvləri üçün "Kibercinayətkarlığa qarşı mübarizədə hüquqi məsələlər və spesifik çətinliklər" mövzusunda təlim keçirilib.**





## VEBİNARLAR

**10.07.2024**




**26.07.2024**



12.06.2024

## "Təhsil, maarifləndirmə və insan resursları komitəsinin" ilk iclası baş tutub

12 iyun tarixində AKTA-nın "Təhsil, maarifləndirmə və insan resursları komitəsinin" ilk iclası AKTA-nın qızıl üzvü olan "Code Academy" şirkətinin ofisində keçirilib.

AKTA-nın 30-a yaxın üzv şirkətinin nümayəndəsi və fərdi ekspertlərin iştirak etdiyi iclası AKTA İdarə Heyətinin sədri Elvin Balacanov giriş sözü ilə açmış və AKTA tərəfindən yaradılmış ekspert komitələrinin məqsədləri barədə məlumat vermişdir. Daha sonra "Code Academy" şirkətinin təsisçisi və baş icraçı direktoru Ülvi Aslanov iclas iştirakçılarını salamlamışdır. AKTA İdarə Heyətinin sədr müavini Rauf Cabarov tərəfindən sözügedən ekspert komitəsinin məqsəd və hədəfləri, həmçinin fəaliyyət istiqamətləri barədə məlumat verilmişdir. Eyni zamanda ekspert komitəsinin fəaliyyəti ilə bağlı gözləntilər komitə üzvlərinin diqqətinə çatdırılmışdır.





# AKTA EKSPERT KOMİTƏLƏRİNİN FƏALİYYƏTİ

**14.06.2024**

## “Həllər, texnologiya və innovasiyalar komitəsi”nin ilk iclası baş tutub

14 iyun tarixində AKTA-nın “Həllər, texnologiya və innovasiyalar komitəsi”nin iclası AKTA-nın üzvü olan “Azercell” şirkətinin ofisində keçirilib.

Kibertəhlükəsizlik, informasiya təhlükəsizliyi və informasiya texnologiyaları sahəsində yerli həllərin, texnologiya, innovasiya və startapların öyrənilməsi, onların təşviqi, təcrübə mübadiləsi və dəstəklənməsini təmin etmək məqsədilə yaradılan ekspert komitəsinin ilk iclasında AKTA-nın inzibati heyəti, AKTA-nın üzv şirkətlərinin, o cümlədən “Azercell” şirkətinin nümayəndələri və AKTA üzvü olan fərdi ekspertlər iştirak edib.






**05.07.2024**

## AKTA-nın “Kibertəhdidlər, prosedur və texniki məsələlər komitəsi”nin iclası baş tutub

5 iyul tarixində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) “Kibertəhdidlər, prosedur və texniki məsələlər komitəsi”nin ilk iclası baş tutub.

Kibertəhdidlərə qarşı mübarizə üzrə həyata keçirilən fəaliyyətə, habelə kibertəhlükəsizlik, informasiya təhlükəsizliyi və informasiya texnologiyaları sahəsində (bundan sonra - müvafiq sahə) mövcud texniki-texnoloji məsələlərin müzakirəsinə, eləcə də sahə üzrə zəruri texniki sənəd və prosedurların formalaşdırılmasına və təkmilləşdirilməsinə dəstək vermək məqsədilə yaradılan ekspert komitəsinin ilk iclasında AKTA-nın inzibati heyəti, AKTA üzvü olan fərdi ekpertlər və üzv şirkətlərin nümayəndələri iştirak edib.





## 01.08.2024

## AKTA-nın "Həllər, texnologiya və innovasiyalar komitəsi"nin II iclası baş tutub

1 avqust tarixində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) Həllər, texnologiya və innovasiyalar ekspert komitəsinin (komitə) ikinci iclası Digital Umbrella şirkətinin ofisində baş tutub. İclası giriş sözü ilə komitənin sədri, Digital Umbrella şirkətinin təsisçisi və direktoru Ulduzə Xəlilova açaraq, komitə üzvlərini onların ofisində salamlayıb. O, komitənin əsas prioritet istiqamətinin kibertəhlükəsizlik sahəsində uğurlu layihələrin (startapların) seçilməsi və dəstəklənməsi olduğunu qeyd edib. Ekspertlərin müzakirələri nəticəsində yerli həllərin və potensial layihələrin müəyyən edilməsi üçün araşdırma və təhlillərin hazırlanması, ölkəmizdə həm dövlət qurumları, həm də biznes subyektləri aspektindən ehtiyac olan kibertəhlükəsizlik məhsulları və həllərinə dair tələblərin öyrənilməsi qərara alınıb.





## 28.09.2024

## AKTA-nın "Həllər, texnologiya və innovasiyalar komitəsi"nin III iclası baş tutub





## 16.10.2024

## AKTA-nın "Təhsil, maarifləndirmə və insan resursları" komitəsinin II iclası baş tutub.

# MƏTBUATDA ÇIXIŞLAR




**08.10.2024**

**Эльвин Баладжанов — «Минвалу»: Нужно ужесточить санкции за нарушение закона о персональных данных**

**19.10.2024**

**“Müsahibə”nin ilk qonağı AKTA İdarə Heyətinin sədri h.ü.f.d. Elvin Balacanovdur**



# MƏTBUATDA ÇIXIŞLAR

## «Təhsilimizi kiberhücumlardan necə qorumalı?» mövzusunda AKTA İdarə Heyəti sədrinin müsahibəsi

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının İdarə Heyətinin sədri, hüquq üzrə fəlsəfə doktoru Elvin Balacanov «Təhsilimizi kiberhücumlardan necə qorumalı» mövzusunda müsahibə verib. Müsahibədə təhsil sahəsində olan kiberhücumlar, onlarla mübarizə siyasəti və AKTA tərəfindən bu istiqamətdə təhsil müəssisələri ilə aparılan işlər barədə məlumat verilib.



**MÜSAHİBƏNİ OXUMAQ ÜÇÜN SKAN EDİN:**

## "Operativ Media"ya müsahibə verən kibertəhlükəsizlik üzrə ekspert Rəşad Əliyev bildirib ki, "Milli Kibertəhlükəsizlik İndeksi"nin yaradılması bu sahədə mühüm addımdır.

**MÜSAHİBƏNİ OXUMAQ ÜÇÜN SKAN EDİN:**



# AKTA ÜZVLÜYÜNƏ 2024-CÜ İLDƏ QƏBUL EDİLMİŞ FİZİKİ VƏ HÜQUQİ ŞƏXSLƏR

## 16 hüquqi şəxs müraciəti - 12 hüquqi şəxs qəbul edilib

| N | Üzvün adı | Faaliyyət növü və sahəsi | Faaliyyət miqyası və veb səhifəsi | Rəhbərin adı və soyadı |
|---|---|---|---|---|
| 01 | "Secure Future" MMC | Biznes qurumu / kibertəhlükəsizlik | Beynəlxalq (Azərbaycan nümayəndəliyi) https://securefuture.com.tr | Vüqar Nəcəfov |
| 02 | "KiberKod" MMC | Biznes qurumu / kibertəhlükəsizlik | Yerli https://kiberkod.com | Məhəmməd Seyidzadə (nümayəndə) |
| 03 | "Allsafe Kibertəhlükəsizlik" MMC | Biznes qurumu / kibertəhlükəsizlik | Beynəlxalq (Azərbaycan nümayəndəliyi) https://allsafe.az/ | Gülşah Bakırlı Mustafa (İcraçı Direktor) |
| 04 | "All in One Technologies" QSC | Biznes qurumu / proqram təminatı | Yerli https://www.allinone.az/ | Məmməd Kərimli (İcraçı Direktor) |
| 05 | "V-erticalas" MMC | Biznes qurumu / kibertəhlükəsizlik | Yerli https://www.verticalas.com | Anar Sadıxbəyov (CEO) |
| 06 | "CYBERSIGN" MMC | Biznes qurumu / kibertəhlükəsizlik | Yerli https://cybersign.az/ | Elvin Axundov (Direktor) |
| 07 | "Secure Fors Cyber Security Solutions" MMC | Biznes qurumu / kibertəhlükəsizlik | Yerli www.securefors.com/ | Ersin Erol Hayrettin oğlu (CEO) |
| 08 | "Cyber İN" MMC | Biznes qurumu / kibertəhlükəsizlik | Yerli cyberin.az | İbrahim Əliyev (Baş direktor) |
| 09 | "AXOFT Distribution" | Biznes qurumu / kibertəhlükəsizlik | Yerli axoftglobal.com/ | Oksana Stepenko (Direktor) |
| 10 | "SECOP" MMC | Biznes qurumu / kibertəhlükəsizlik | Yerli www.secop.az | Aslan Aşirov (Direktor) |
| 11 | "Proxima Technology Solutions" MMC | Biznes qurumu / kibertəhlükəsizlik | Yerli www.proximatech.az | Tayfur Böler Ismayil (CEO) |
| 12 | "INFOSEC CYBER SECURITY" | Biznes qurumu / kibertəhlükəsizlik | Beynəlxalq https://www.infosec.com.tr/ | Elnur Xəlilzadə Xəlil oğlu (CEO) |

# AKTA ÜZVLÜYÜNƏ 2024-CÜ İLDƏ QƏBUL EDİLMİŞ FİZİKİ VƏ HÜQUQİ ŞƏXSLƏR

## 101 fiziki şəxs müraciəti - 22 fiziki şəxs qəbul edilib

| N | Şəxsin adı və soyadı | İş yeri və vəzifəsi | Ekspert sahəsi |
|---|---|---|---|
| 01 | Kərimova Lalə | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Kibertəhlükəsizlik, İT təhsil, Elm, Tədqiqat və Araşdırma |
| 02 | Məmmədova Müşərrəf | AKTA | İT təhsil, İT təlimçi, Elm, Tədqiqat və Araşdırma, İT menecment |
| 03 | Nuriyev Elşad | Aqrarkredit BOKT | Kibertəhlükəsizlik, İnformasiya təhlükəsizliyi menecmenti, İT mühəndis, İT menecment |
| 04 | Nağıyev Kamran | Q.V. MMC (Quality Veritas Inc.) | Kibertəhlükəsizlik, İnformasiya təhlükəsizliyi menecmenti, İT menecment |
| 05 | Təbriz Cəfərov | Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası – Hüquqşünas – Baş elmi tədqiqatçı | Kibertəhlükəsizlik, Kiber hüquq |
| 06 | Vüsal Ramazanlı | BestComp Group – İnformasiya Təhlükəsizliyi şöbə rəhbəri | Kibertəhlükəsizlik, Şəbəkə inzibatçısı |
| 07 | Ayxan Hüseynli | Azərbaycan Respublikasının Mərkəzi Bankı – Təhlükəsizlik Analitiki | Kibertəhlükəsizlik, Şəbəkə inzibatçısı |
| 08 | Elvin Muradzadə | Mingəçevir Dövlət Universiteti – Müəllim,Kibertəhlükəsizlik Klubunun rəhbəri | Kibertəhlükəsizlik, İT təhsil |
| 09 | Lamiyə Nəcəfova | ADNSU SABAH Qrupları. AR Elm və Təhsil Nazirliyi İSİ – İnformasiya təhlükəsizliyi üzrə müəllim. Elmi işçi | Kibertəhlükəsizlik, İT təhsil |
| 10 | Mehman İsgəndərov | Cyberpoint – Departament Rəhbəri | Kibertəhlükəsizlik |
| 11 | Əfqan Şərifov | Veyseloglu Group – İnformasiya Təhlükəsizliyi Mütəxəssisi | Kibertəhlükəsizlik |

| | | | |
|---|---|---|---|
| 12 | Xəyal Əhmədov | Qafqaznet – CEO | Kibertəhlükəsizlik, İT mühəndis |
| 13 | Malik Rəşidov | MEXPO – Direktor | İnformasiya təhlükəsizliyi menecmenti, İT menecment |
| 14 | Arzu Rəhimli | AzInTelecom – Məhsul inkişafı üzrə menecer | Kibertəhlükəsizlik, İT təhsil, İT menecment |
| 15 | Məmməd Məmmədov | B&B Security Alliance –Texniki Direktor | Kibertəhlükəsizlik, İT mühəndis |
| 16 | Asif Qanbayev | Dövlət Gömrük Komitəsinin Akademiyası – Baş müəllim, İT və texniki elmlər kafedrasının müdiri əvəzi | Kibertəhlükəsizlik, İnformasiya təhlükəsizliyi menecmenti, |
| 17 | İftixar Şamilov | SOCAR Baş ofisinin Qrupun Texnoloji İdarəetməsi Departamenti – Böyük mühəndis | Kibertəhlükəsizlik, mühəndis |
| 18 | Toğrul Vəlibəyli | GlobalSoft MMC – Direktor | Kibertəhlükəsizlik, İT mühəndis, İT təhsil, İT təlimçi, İT menecment, Proqram təminatı / veb |
| 19 | Fərid Əmirov | "DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi" və "Səhiyyə Nazirliyi" –<br><br>"Baş Şəbəkə inzibatşısı" və "İT kibertəhlükəsizlik və İnfrastruktur üzrə konsultant" | Kibertəhlükəsizlik, İnformasiya təhlükəsizliyi menecmenti, Sistem inzibatçısı, Şəbəkə inzibatçısı, İT təlimçi, İT menecment |
| 20 | Pərviz Nəsirov | UFAZ – İT mütəxəssis | Kibertəhlükəsizlik, İnformasiya təhlükəsizliyi menecmenti, İT təhsil |
| 21 | Asif Ibrahimov | KİDFi MMC, Apple Designated Person, Azercell Telekom–<br><br>CEO, Layihə Meneceri, Ekspert Mühəndisi | İnformasiya təhlükəsizliyi menecmenti, İT mühəndis, İT təlimçi |
| 22 | Kamran Kərimli | SOCAR Group -<br><br>Texnoloji İdarəetmə Departamentinin rəis müavini | İnformasiya təhlükəsizliyi menecmenti<br>Kibertəhlükəsizlik<br>Elm, Tədqiqat və Araşdırma<br>İT təlimçi |

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası



**Ünvan:** Cəfər Cabbarlı küç. 609, Qlobus Biznes Mərkəzi, 7 mərtəbə

**Əlaqə:** (012) 597 55 22